# *Tariyel ÜMİD-80*



Hörmətli Tariyel müəllimi yubileyi münasibətilə təbrik edirik.

Tariyel Ümid bədii yaradıcılığa ötən əsrin 60-cı illərində başlayıb. İlk mətbu şeiri 1964-cü ildə işıq üzü görüb. "El məhəbbəti", "Çinar pöhrələri", "Odlu misralar" almanaxlarında şeirləri çap olunub. "Ağ günümün qanadları" şeir və poemalar kitabı 1986-cı ildə oxucuların ixtiyarına verilmiş, maraqla qarşılanmışdır. "Bu da bir taledi", "Mənim Gülüstanım" kitabları nəşr edilib. Vətən sevgisini, saf insani duyğuları tərənnüm edən şeirləri təbiiliyi ilə seçilir. Cənub mövzusu yaradıcılığının ana xəttidir. Doğulduğu Cənubi Azərbaycanın Qaradağ həsrətindən də, qoynunda böyüyüb yaşa dolduğu Qarabağın dərdlərindən də eyni dərəcədə yana-yana yazıb. Amma heç vaxt ümidsiz olmayıb. İndi Şanlı Zəfərimizi tərənnüm edən şeirlərilə oxucularını salamlayır.

Hörmətli Tariyel müəllimi bir daha təbrik edir, cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**